**Vəfa Zahid qızı İsgəndərova** [66]

# İNFORMASİYANIN GÜCÜ: DATA JURNALİSTİKASI İLƏ DOĞRU VƏ DƏRİN TƏHLİLLİ XƏBƏRÇİLİK

**Giriş.** Müasir dünyada informasiya cəmiyyətlərin formalaşmasında mühüm rol oynayır. Qlobal rəqəmsallaşma və texnoloji inkişaf sayəsində məlumat axını sürətlə artır, bu da xəbərlərin daha obyektiv və etibarlı şəkildə təqdim edilməsini zəruri edir. İnformasiyanın gücü təkcə faktların ötürülməsində deyil, həm də cəmiyyətə təsir göstərmək, ictimai rəy formalaşdırmaq və qərar qəbuletmə proseslərini yönləndirməkdə özünü büruzə verir. Bu baxımdan, media sahəsində ənənəvi jurnalistika üsullarının kifayət etmədiyi bir dövrdə data jurnalistikası mühüm əhəmiyyət kəsb edir.

Data jurnalistikası faktlara əsaslanan, rəqəmsal texnologiyalardan istifadə edərək geniş data bazalarından analizlər aparan və cəmiyyətə daha obyektiv məlumat təqdim edən jurnalistika növüdür. Ənənəvi jurnalistikadan fərqli olaraq, bu yanaşma təkcə mənbələrdən alınan məlumatları ötürməklə kifayətlənmir, eyni zamanda, statistik analizlər, vizuallaşdırmalar və süni intellekt kimi müasir vasitələrdən istifadə etməklə məlumatları daha anlaşılan və əlçatan formada təqdim edir. Data əsaslı jurnalistika media istehlakçısına yalnız xəbəri deyil, onun arxasındakı dərin təhlili də çatdıraraq, ictimaiyyətin daha informasiyalı qərarlar qəbul etməsinə imkan yaradır.

Bununla yanaşı, data jurnalistikada doğruluq və dərin təhlil məsələləri ön planda dayanır. Media məkanında yanlış və manipulyativ informasiyanın yayılması, saxta xəbərlərin (fake news) sürətlə yayılması informasiya mühitini təhrif edir. Data jurnalistikasının gücü məhz bu cür təhriflərə qarşı effektiv vasitə olmasında özünü göstərir. Məlumatlar real statistik və obyektiv göstəricilərə əsaslandığı üçün jurnalistlər faktları təhlil edərək spekulyativ və subyektiv yanaşmalardan uzaq dayanırlar. Bu isə cəmiyyətin məlumatlandırılmasında etibarlılığı artırır və media istehlakçılarının daha düzgün informasiya əldə etməsini təmin edir.

İnformasiya güclü bir silahdır və onun düzgün idarə olunması cəmiyyətin inkişafına birbaşa təsir edir. Data jurnalistikası bu gücü effektiv və şəffaf şəkildə istifadə etməyə imkan yaradır. Doğru və dərin təhlilli xəbərçilik isə yalnız hadisələri təqdim etməklə kifayətlənməyib, onların mənasını açmaq və ictimaiyyəti maarifləndirmək missiyasını da yerinə yetirir. Bu səbəbdən, media sahəsində çalışan jurnalistlərin data əsaslı yanaşmaları mənimsəməsi, rəqəmsal analitik vasitələrdən istifadə etməsi və obyektiv informasiyanı təqdim etmə bacarığını inkişaf etdirməsi müasir dövrün tələbləri arasında əsas yer tutur.

**Əsas hissə.**İnformasiya, xam dataların müəyyən sistematik çərçivədə işlənərək məzmunlu və funksional bir bütövlük halına gətirilməsi prosesini ifadə edir. Data, çox vaxt kontekstindən ayrılmış, işlənməmiş və strukturlaşdırılmamış bir ünsür kimi qəbul edildiyi halda, informasiya bu ünsürlərin sistemləşdirilməsi, şərh olunması və müəyyən bir məqsədə xidmət edəcək şəkildə qurulması ilə meydana gəlir (6, s. 8). İnformasiya datanın sistemləşdirilmiş forması olmaqdan daha çox, onu funksional hala gətirən və qərarvermə proseslərində istifadə edilə bilən keyfiyyətli bir məzmuna çevrilməsini təmin edir.

Ackoff (1) tərəfindən irəli sürülən data-informasiya-bilik iyerarxiyasına görə, data xam material xarakteri daşıyır, informasiya isə sistemləşdirilmiş və kontekstə yerləşdirilmiş bir struktura malikdir. Bilik isə informasiyanın şərh olunaraq daha yüksək səviyyədə mənaya çevrilməsi nəticəsində yaranır. Çaparın (2, s. 179) fikrinə görə, informasiya ağıl süzgəcindən keçirildikdə bilik halına gəlir. Bu kontekstdə data, informasiya və bilik qərarvermə proseslərində bir-birini tamamlayan mərhələlər kimi xarakterizə olunur. Bu ardıcıllıq informasiya cəmiyyətinin inkişafında və rəqəmsal dünyada informasiya axınının idarə edilməsində mühüm rol oynayır.

İnformasiya eyni zamanda bir kommunikasiya ünsürüdür. Davenport və Prusak (3, s. 24), informasiyanın hər zaman bir ötürücü və qəbuledici arasında qarşılıqlı təsirə əsaslandığını vurğulayır. Bu qarşılıqlı təsirin uğurlu ola bilməsi üçün, mesajın qəbul edən şəxsdə idraki və ya davranış səviyyəsində bir dəyişiklik yaratması vacibdir. İnformasiyanın təqdimat forması (vizual, auido, yazılı) qəbul edənin mövcud bilik bazası və mədəni konteksti ilə uyğunlaşdıqda daha təsirli olur. Bu səbəbdən, informasiya yalnız data ötürülməsi kimi deyil, həm də ictimai şüurun formalaşmasında və ictimai rəyin yaradılmasında mühüm bir amil kimi qiymətləndirilməlidir.

Xüsusilə jurnalistika və media sahəsində informasiya cəmiyyətin maarifləndirilməsi, demokratik sistemin gücləndirilməsi və ictimai diskursun formalaşdırılmasında əsas vasitələrdən biri hesab olunur. Dəqiq və etibarlı informasiya, informasiya cəmiyyətinin inkişafına və fərdlərin şüurlu qərar verməsinə töhfə verir.

Media, informasiyanın istehsalı və yayılması baxımından böyük gücə malikdir. Demokratik cəmiyyətlərdə media adətən "dördüncü hakimiyyət" kimi xarakterizə olunur və hökumətləri, iqtisadi aktorları və ictimai dinamikləri nəzarətdə saxlayaraq ictimai rəyin formalaşmasında mühüm rol oynayır. Lakin media qurumlarının kommersiya maraqları, sürətə əsaslanan yayım politikaları və sensasiyalı məzmun seçimləri informasiyanın keyfiyyətinin aşağı düşməsinə və ictimaiyyətin yanlış yönləndirilməsinə də gətirib çıxara bilir (12, s. 6).

Xüsusilə rəqəmsallaşmanın geniş yayılması, yanlış informasiyanın daha sürətli dövriyyəyə girməsinə səbəb olur ki, bu da öz növbəsində etibarlı və doğrulanmış məzmunun dəyərini artırır. Bu kontekstdə media qurumları, həm məzmun istehsalında, həm də məzmunun təqdim edilməsində şəffaflıq və hesabatlılıq prinsiplərini mənimsəyərək cəmiyyətin düzgün informasiyaya çıxışını təmin etməlidir.

---

[66] **Filologiya üzrə fəlsəfə doktoru**

Müasir dövrdə informasiyaya çıxış imkanlarının genişlənməsi bir tərəfdən fərdlərin daha çox mənbəyə çatmasını təmin edərkən, digər tərəfdən həddindən artıq informasiya yükü vasitəsilə onların idraki sərhədlərini çətinləşdirir. Həddindən artıq informasiyaanlayışı ilk dəfə Bertram Gross tərəfindən irəli sürülmüş, daha sonra Alvin Toffler tərəfindən genişləndirilərək "information overload" kimi konseptuallaşdırılmışdır.

Simmelin XIX əsrin sonlarında vurğuladığı həddindən artıq stimullaşma vəziyyəti və Millerin (9, s. 60) idraki qabiliyyət nəzəriyyəsi, fərdlərin eyni anda yalnız məhdud miqdarda informasiyanı emal edə bildiyini ortaya qoyur. Lucian və De Farias (7, s. 21), informasiya bolluğunun diqqət dağınıqlığını artıraraq fərdlərin tənqidi dəyərləndirmə bacarığını zəiflədə biləcəyini irəli sürür.Bu vəziyyət, xüsusilə manipulyasiya və dezinformasiya risklərini artıraraq, fərdlərin yanlış yönləndirilməsini asanlaşdırır. Buna görə də, müasir informasiya cəmiyyətində fərdlərin media savadlılığını inkişaf etdirməsi və tənqidi düşünmə reflekslərini gücləndirməsi, informasiya bolluğu içində doğru informasiyanı ayırd edə bilmələri üçün ən vacib bacarıqlardan birinə çevrilir.

İnformasiya idarəçiliyi, qərar qəbul edənlər və qurumlar üçün strateji bir amil kimi qiymətləndirilməlidir. Reuters tərəfindən aparılan rəhbər mövqelərdə çalışan şəxslərin baxışlarını əks etdirən sorğular, hətta yüksək səviyyəli rəhbərlərin belə informasiya bolluğu qarşısında çətinlik çəkdiyini göstərir. Təhsil səviyyəsi yüksək olan fərdlər belə etibarlı məzmun ilə təhrif olunmuş məzmun arasındakı fərqi ayırd etməkdə çətinlik çəkərkən, media savadlılığı və tənqidi düşünmə bacarıqlarının əhəmiyyəti getdikcə artır.

Bu kontekstdə media qurumları yalnız xəbər təqdim edən platformalar kimi deyil, eyni zamanda doğru informasiyanı işləyən və ictimaiyyətə çatdıran məsuliyyət sahibi aktorlar kimi qiymətləndirilməlidir. Data jurnalistikası, bu prosesdə informasiyanın etibarlılığını və doğruluğunu artıran ən vacib yanaşmalardan biri hesab edilir.

Yuxarıda da qeyd olunduğu kimi, informasiyaxam datanın işlənərək mənalı bir bütövlüyə çevrilməsi prosesidir və müasir cəmiyyətlərdə bilik əldə etmənin əsas elementlərindən biri kimi qəbul edilir. Bununla yanaşı, informasiyanın yalnız sistemləşdirilmiş data olmaqdan daha çox, fərdlərin və qurumların qərar qəbuletmə proseslərini istiqamətləndirən kritik bir amil olduğu unudulmamalıdır. Xüsusilə media və jurnalistika sahəsində informasiyanın dəqiqliyi, obyektivliyi və etibarlılığı, ictimai şüurun və ictimai rəyin formalaşmasında mərkəzi rol oynayır.

Rəqəmsallaşmanın geniş yayılması ilə yanaşı, xəbər istehsalı, yayımı və istehlakı prosesi sürət qazanmışdır. Lakin bu dinamika dəqiqlik prinsipinin qorunmasını daha da çətinləşdirmişdir. Media qurumlarının artan rəqabət təzyiqi ilə sürətə əsaslanan bir yanaşma mənimsəməsi, bəzən xəbər məzmunlarında dəqiqlik prinsipinin geri planda qalmasına səbəb olmuşdur. Bu kontekstdə data jurnalistikası, jurnalistika praktikasında mühüm bir transformasiyanı ifadə edir və analitik metodlardan istifadə edərək informasiyanın doğruluğunu və etibarlılığını gücləndirməyə imkan yaradır.

Dəqiqlik, jurnalistikanın ən fundamental etik prinsiplərindən biridir və jurnalistikada həqiqətə uyğun məlumat təqdim olunmasını tələb edir. Bir xəbərin etibarlı olması yalnız düzgün məlumatı ehtiva etməsi ilə deyil, eyni zamanda manipulyativ və ya spekulyativ ünsürlərdən azad olması ilə mümkündür. Müasir media ekosistemində yanlış informasiyanın yayılmasının qarşısını almaq üçün data jurnalistikası, jurnalistikanın analitik əsaslara söykənməsinə şərait yaradan mühüm bir vasitə kimi ön plana çıxır. Data jurnalistikası sayəsində xəbər məzmunları statistik məlumatlarla dəstəklənərək həm informasiya çirkliliyinin qarşısı alınır, həm də xəbərlərin dərin analizinə imkan yaradılır.

Bununla yanaşı, rəqəmsal media dövründə sürətin ön planda olması, dəqiqlik prinsipinin arxa plana keçməsinə səbəb olur. "Xəbəri ilk verən" olmaq uğrunda gedən yarış, jurnalistləri və media qurumlarını xəbərin doğruluğunu tam yoxlamadan yayımlama riskinə sürükləyir. Bu vəziyyət ictimaiyyətin yanlış məlumatlandırılmasına və dezinformasiyanın yayılmasına gətirib çıxarır. Halbuki jurnalistika peşə etikası, sürətdən əvvəl doğruluğun təmin olunmasını tələb edir. Xəbərlərin ictimaiyyətə çatdırılması prosesində sürət ilə dəqiqlik arasında balans qorunmalı və etibarlı məlumatın yayılması əsas məqsəd olmalıdır.

Xüsusilə məhkəmə proseslərinə aid xəbərlər, şəxsi hüquqlara təsir edə biləcək və ya ictimai rəyə yön verə biləcək mövzular daha ciddi bir doğrulama prosesini tələb edir. Bu tip xəbərlərdə yalnız tək bir mənbəyə əsaslanmaq əvəzinə, müxtəlif mənbələrdən çarpaz doğrulama aparılmalı və informasiyanın etibarlılığı təmin olunmalıdır. Bu kontekstdə data jurnalistikası, statistik analizlər və böyük data vasitələri sayəsində xəbər məzmununun doğruluğunu təsdiqləmək üçün mühüm bir rol oynayır.

Pavlikə (10, s. 229) görə, rəqəmsal media xəbər istehsalında sürət, əlçatanlıq, saxlama tutumu və məzmun müxtəlifliyi kimi amilləri ön plana çıxarmış, lakin eyni zamanda dezinformasiyanın yayılmasını da sürətləndirmişdir.Ənənəvi jurnalistikada xəbər mənbələrinin doğrulanması və redaktə nəzarəti mühüm əhəmiyyət kəsb edirdisə, rəqəmsal media mühitində bu mexanizmlər tədricən zəifləmişdir. Karlsson, Clerwall və Nord (4, s. 3) rəqəmsal medianın sürət yönümlü strukturunun doğrulama prosesində fasilələrə səbəb olduğunu, lakin eyni zamanda yanlış məlumatların aşkar edilməsini asanlaşdıran şəffaflıq mexanizmləri təqdim etdiyini qeyd edirlər. Bu baxımdanmedia qurumları doğruluq prinsipini qorumaq üçün şəffaflıq siyasətlərini gücləndirməli və ictimaiyyətə təqdim etdikləri məzmunun dəqiqliyinə dair hesabatlılıq mexanizmləri formalaşdırmalıdır.

Kovach və Rosenstielə (5, s. 94) görə, ənənəvi jurnalistikada doğruluq xəbərin hazırlanma mərhələsində təmin edilməyə çalışıldığı halda, müasir media ekosistemində yanlış məlumatların düzəldilməsinə əsaslanan "sonradan doğrulama" modeli geniş yayılmışdır. Lakin bu model yanlış məlumatların yayılmasının qarşısını almaq

üçün həmişə kifayət etmir. Buna görə də media qurumları xəbər istehsalı prosesində daha dəqiq və qabaqlayıcı doğrulama mexanizmi inkişaf etdirməlidir. Data jurnalistikası bu baxımdan xəbər mənbələrinin etibarlılığını gücləndirir, analitik metodlarla dəstəkləyir və spekulyativ məzmunun qarşısını alaraq doğruluq prinsipini möhkəmləndirir.

Metzger və Flanaginə (8, s. 210) görə, yanlış məlumatların yayılması müasir kommunikasiya dövründə getdikcə daha ciddi təhlükəyə çevrilmişdir. Rəqəmsal media istifadəçiləri, ənənəvi media istehlakçıları ilə müqayisədə daha çox manipulyativ məzmuna məruz qalır. Bu vəziyyət media savadlılığının və tənqidi düşünmə bacarıqlarının inkişaf etdirilməsinin zəruriliyini ortaya qoyur. Fərdlərin media istehlak vərdişlərində məlumatı şübhə altına almaq refleksi inkişaf etdirməsi, yanlış məlumatların yayılmasının qarşısını almaqda mühüm rol oynayır.Data jurnalistikası, jurnalistikada etik prinsiplərin qorunmasına töhfə verməklə yanaşı, eyni zamanda şəffaflıq və hesabatlılıq prinsiplərinin gücləndirilməsinə dəstək olur.

Pavlikə (11, s. 287) görə, müasir jurnalistikanın rəqəmsallaşması aşağıdakı beş əsas sahəni dəyişdirmişdir:

1. Xəbər toplama və təqdimetmə prosesləri
2. Multimedia məzmunu kimi məlumatın saxlanılması və təşkil olunması
3. Redaktə prosesləri və xəbər istehsalı
4. Xəbərin yayılması və əlçatanlığı
5. Rəqəmsal platformalarda xəbərin təqdim olunması

Bu transformasiya jurnalistikanın mahiyyətini köklü şəkildə dəyişdirmiş, lakin dəqiqlik, obyektivlik və etik prinsiplər öz aktuallığını qorumağa davam etmişdir. Data jurnalistikası, bu nöqtədə məlumatlara əsaslanan jurnalistika anlayışını inkişaf etdirərək spekulyativ məzmunun qarşısını alır və jurnalistikanın elmi və analitik bazaya əsaslanmasını təmin edir.

**Nəticə.**Araşdırmanın nəticələri göstərir ki, müasir media ekosistemində obyektiv və dərin təhlilli xəbər istehsalı yalnız jurnalistlərin etik prinsiplərə sadiqliyi ilə deyil, eyni zamanda rəqəmsal texnologiyaların və data əsaslı yanaşmaların tətbiqilə mümkündür. Media istehlakçılarının məlumatları düzgün qiymətləndirə bilməsi üçün jurnalistika sahəsində etibarlılıq, dəqiqlik və şəffaflıq prinsipləri qorunmalıdır. Xüsusilə xəbər sürətinin dəqiqlikdən üstün tutulması informasiya keyfiyyətinin aşağı düşməsinə və ictimaiyyətin yanlış yönləndirilməsinə səbəb ola bilər. Bu baxımdan, media qurumları və jurnalistlər data jurnalistikasının təqdim etdiyi imkanlardan istifadə edərək daha etibarlı və obyektiv xəbərçilik modelini inkişaf etdirməlidirlər.

## İstifadə edilmiş ədəbiyyat


1. Ackoff, R. (2008, August 28). *On learning and systems that facilitate it.* Retrieved from http://cqmextra.cqm.org/cqmjournal.nsf/reprints/rp07300
2. Çapar, B. (2005). Bilgi yönetimi. In Ç. C. Aktan & İ. Y. Vural (Eds.), *Bilgi çağı, bilgi yönetimi ve bilgi sistemleri* (pp. 175–195). Konya: Çizgi Kitabevi.
3. Davenport, T. H., & Prusak, L. (2001). *İş dünyasında bilgi yönetimi: Kuruluşlar ellerindeki bilgiyi nasıl yönetirler* (G. Günay, Trans.). İstanbul: Rota Yayınları.
4. Karlsson, M., Clerwall, C., & Nord, L. (2016). Do not stand corrected: Transparency and users' attitudes to inaccurate news and corrections in online journalism. *Journalism & Mass Communication Quarterly, 1*(1), 1–20.
5. Kovach, B., & Rosenstiel, T. (2010). *Blur: How to know what's true in the age of information overload.* New York: Bloomsbury.
6. Laudon, K. C., & Laudon, J. P. (1998). *Management information systems* (5th ed.). New Jersey: Prentice Hall.
7. Lucian, R., & De Farias, S. A. (2009). Effects of information overload on Brazilian e-consumers. *American Journal of Economics and Business Administration, 1*(1), 21–26.
8. Metzger, M. J., & Flanagin, A. J. (2013). Credibility and trust of information in online environments: The use of cognitive heuristics. *Journal of Pragmatics, 59*, 210–220.
9. Mutlu, E. (2005). *Kitle iletişim kuramları.* Ankara: Ütopya Yayınevi.
10. Pavlik, J. V. (2000). The impact of technology on journalism. *Journalism Studies, 1*(2), 229–237.
11. Pavlik, J. V. (2013). *Yeni medya ve gazetecilik* (B. K. Müge Demir, Trans.). Ankara: Phoenix Yayınevi.
12. Pirker, H. (1999). On becoming a content company: The case of Styria, Austria. *The Roads to Growth / The 1999 World Forum on Newspaper Strategy, Newspaper Management and Marketing Bureau of the World Association of Newspapers.* Retrieved from http://.wan-press.org/IMG/pdf/doc-366.pdf



**Açar sözlər:** informasiya, data jurnalistikası, analitik xəbərçilik, doğru xəbərçilik, data analiz

**Keywords:** information, data journalism, analytical reporting, accurate journalism, data analysis.

**Ключевые слова:** информация, дата-журналистика, аналитическая журналистика, достоверная журналистика, анализ данных.



### *Xülasə*

Rəqəmsallaşma ilə birlikdə informasiya bolluğu artmış, eyni zamanda saxta xəbərlərin yayılması kimi problemlər meydana çıxmışdır. Bu şəraitdə data jurnalistikası, faktlara əsaslanan analitik yanaşmalar və statistik metodlar vasitəsilə obyektiv və dərin təhlilli məzmun təqdim etməyə imkan yaratmışdır. Ənənəvi jurnalistikadan fərqli olaraq, məlumatların strukturlaşdırılması, vizuallaşdırılması və innovativ texnologiyalarla təhlili, media istehlakçılarının dezinformasiyaya qarşı daha dayanıqlı olmasını təmin etmişdir. Beləliklə, data jurnalistikası, müasir informasiya mühitində dəqiqlik, obyektivlik və şəffaflıq prinsipləri əsasında etibarlı xəbər istehsalının əsas vasitələrindən birinə çevrilmişdir.Bu araşdırmada da data jurnalistikasının jurnalistikada etibarlılığı və obyektivliyi artırmaqda rolu, saxta xəbərlərlə mübarizədə effektivliyivə müasir informasiya mühitində jurnalistlərin üzərinə düşən məsuliyyətlər təhlil edilmişdir.



### *Summary*

With the advancement of digitalization, the abundance of information has increased, while issues such as the spread of fake news have also emerged. In this context, data journalism has enabled the presentation of objective and in-depth analytical content through fact-based analytical approaches and statistical methods. Unlike traditional

journalism, the structuring, visualization, and analysis of data using innovative technologies have strengthened media consumers' resilience against disinformation. Thus, data journalism has become one of the key tools for producing accurate, objective, and transparent news in the modern information environment. This study examines the role of data journalism in enhancing reliability and objectivity in journalism, its effectiveness in combating fake news, and the responsibilities of journalists in the contemporary media landscape.

***Резюме***

С развитием цифровых технологий объем информации увеличился, однако одновременно возникли такие проблемы, как распространение фейковых новостей. В этом контексте дата-журналистика позволила предоставлять объективный и глубоко аналитический контент с использованием аналитических подходов, основанных на фактах, и статистических методов. В отличие от традиционной журналистики, структурирование, визуализация и анализ данных с применением инновационных технологий способствовали повышению устойчивости потребителей медиа к дезинформации. Таким образом, дата-журналистика стала одним из ключевых инструментов для создания точных, объективных и прозрачных новостей в современном информационном пространстве. В данном исследовании рассматривается роль дата-журналистики в повышении достоверности и объективности журналистики, ее эффективность в борьбе с фейковыми новостями, а также ответственность журналистов в условиях современного медиапространства.

**RƏYÇİ: dos. E.Vəliyeva**